# Dinamik inkişaf iqtisadiyyatın dayanıqlığını təmin edir

## *Azərbaycanın siyasətinin mahiyyətində tərəqqi, səmərəli əməkdaşlıq, sabitlik, sülh və təhlükəsizlik dayanır*

**Regionların sosial-iqtisadi inkişafı üçüncü Dövlət Proqramının icrası uğurla davam edir. Diqqəti cəlb edən ən pozitiv məqam odur ki, bu irəliləyişdə yüksək temp və dinamizm qorunur, bütün layihələr vaxtında icra olunur, inkişafı təmin edən islahatlar aparılır. Dövlətin qəbul etdiyi investisiya proqramları tam şəkildə icra edilir. Beləliklə, nəzərdə tutulan bütün məsələlərin operativ, vaxtında öz həllini tapması iqtisadiyyatın dayanıqlığını və tərəqqisini təmin edən amillərdəndir. Dövlət başçısı Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində demişdir: "Dövlət investisiya proqramı icra edilir. Bu proqram çox konkret xarakter daşıyır. İnvestisiya proqramı ölkə qarşısında duran əsas məsələlərin həlli üçün mühüm vasitədir. İlin sonuna qədər bütün lazımi infrastruktur layihələrinin icrası davam etdirilməlidir və yeni layihələr icra edilməlidir".**

Dövlət büdcəsindən investisiya yönəldilməsi üçün vəsait ayırmaları davam edir. Altı ayda bu istiqamətdə 3 milyard 102 milyon manat sərf edilib. Həmin məbləğin 1 milyard 656 milyon manatı elm, təhsil, səhiyyə, mədəniyyət, idman və digər sosial-mədəni və məişət təyinatlı obyektlərin, o cümlədən Bakıda Avropa Oyunlarının keçirilməsi, 1 milyard 150 milyon manatı ölkənin əsas enerji, su və qaz təchizatı, nəqliyyat, kommunal, meliorasiya infrastrukturlarının tikintisi və yenidən qurulması üçün istifadə olunub.

Davam edən qlobal maliyyə və iqtisadi böhran şəraitində öz hesabına yaşamayan, külli miqdarda borc hesabına fəaliyyət göstərən, sosial proqramları da borcun götürülməsi hesabına icra edənlər, sonda böyük çətinliklərlə üzləşirlər. Çünki götürülən borc hansısa öhdəlik hesabına verilir və bu borclanma, nəhayət ki, gəlib son həddə çatır. Dövlətin borcu qaytarmaq imkanı olmayanda, öhdəliyi yerinə yetirə bilməyəndə həm ölkədə sosial-iqtisadi böhran baş verir, həm də müstəqilliyinə ciddi zərbələr dəyir. Azərbaycanda isə investisiya düşünülmüş siyasətlə həyata keçirilir. Bu il xarici investisiya daxili sərmayə qoyuluşunu üstələmişdir. Bu proses elə getməlidir ki, həm ölkənin investisiya cəlbediciliyi itməsin, həm də dövlətin müstəqilliyinə zərər toxunmasın. Ölkə rəhbəri builki kapital yönəldilməsinin əhəmiyyəti barədə vurğulamışdır: "Ölkəmizə 6 ayda 12,7 milyard manat sərmayə qoyulmuşdur. Bu da çox böyük rəqəmdir və bu birinci 6 ayda xarici investisiyalar üstünlük təşkil edir. Son illərdə biz gördük ki, daxili investisiyalar üstünlük təşkil edir. Bu ilin 6 ayında isə xarici sərmayə üstünlük təşkil edir. Bu da müsbət haldır, çünki yenə də göstərir ki, Azərbaycan investisiyalar üçün çox cəlbedici ölkədir və xarici sərmayə burada lazımi səviyyədə qorunur".

Azərbaycanda sosial proqramlar daxili imkanlarla icra edilir. Hazırda strateji valyuta ehtiyatlarımız 50 milyard ABŞ dollarından çoxdur. Bu, həm ölkəmiz üçün, həm də strateji valyuta ehtiyatlarına malik olan suveren ölkələr arasında çox gözəl göstəricidir və davamlı inkişaf üçün möhkəm zəmindir. Azərbaycanda bu vəsaitin səmərəli işlə-



məsi sayəsində iqtisadiyyatda artım dinamizmi təmin olunur. Əldə edilən əlavə gəlirlər maliyyənin vəziyyətini daha da yaxşılaşdırır, yeni investisiya layihələrinin uğurla, vaxtında həyata keçirilməsi üçün lazım olan şəraiti yaradır. Strateji valyuta ehtiyatlarının ildən-ilə daha da artırılması üçün də bütün lazımi tədbirlər görülür.

Ölkəmizin daxili və xarici siyasəti bir-birini tamamlayır. Dünyanın müxtəlif region dövlətləri ilə yaradılan, daim genişlənən qarşılıqlı səmərəli əməkdaşlıq əlaqələri hər il sosial-iqtisadi inkişafın daha yüksək mərhələsinə qalxmağa imkan yaradır. Ölkə Prezidentinin xarici səfərləri həmin dövlətlərlə sıx, geniş, çoxtərəfli siyasi və iqtisadi əlaqələrin səmərəliliyinə, iki və çoxformatlı əməkdaşlığa geniş imkan yaradır və qazanılan uğurlarda mühüm rol oynayır. Hazırda Azərbaycan Avrasiya məkanında mühüm iqtisadi, siyasi və humanitar mərkəzdir. Ölkə Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaşdır, müxtəlif istiqamətlərdəki əməkdaşlıq daim genişlənir və möhkəmlənir. Azərbaycan Prezidentinin Fransa prezidenti Fransua Ollanda bu ölkənin milli bayramı ilə əlaqədar məktubundakı ifadələri bu qitənin dövlətləri ilə münasibətlərin yüksək səviyyədə olduğunun aydın göstəricisidir: "Azərbaycan-Fransa münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Yüksək səviyyəli təmaslarımız, qarşılıqlı faydalı iqtisadi əməkdaşlığımız, davamlı mədəni və humanitar əlaqələrimiz ölkələrimizin və xalqlarımızın dostluğunu nümayiş etdirən mühüm amillərdir". Belə ki, Azərbaycanın təşəbbüsçüsü və əsas iştirakçısı olduğu nəhəng transmilli layihələrin həm iqtisadi, həm sosial, həm də siyasi əhəmiyyəti çox böyükdür. Həmin layihələrdən biri—inşası başa çatmaqda olan Bakı-Tbilisi-Qars dəmir yoludur. Bu nəqliyyat dəhlizinin reallaşması Pekindən Londona qədər iki qitə arasında əlaqə yaradacaq, onlarca dövlətin nəqliyyat strukturunu birləşdirəcək, beynəlxalq nəqliyyat təhlükəsizliyinə mühüm töhfə verəcək, iqtisadi və siyasi dividendlər qazandıracaqdır. Digər, TANAP transmilli qaz layihəsi isə Avropanın enerji xəritəsini tamamilə yenidən quracaqdır. Hazırda ölkəmizin xarici ticarət dövriyyəsinin demək olar ki, yarısı Avropa İttifaqına üzv ölkələrin payına düşür. Aİ dövlətləri həm də əsas investorlarımızdır, yəni xarici kapital qoyuluşunun 50 faizi onların hesabınadır. Beləliklə, bu layihənin iki qitədə çox böyük iqtisadi və siyasi əhəmiyyəti vardır, inkişafa və sabitliyə mühüm töhfə verəcəkdir. Dövlət başçısı ölkədəki davamlı inkişaf barədə deyib: "Əlbəttə ki, iqtisadi inkişafımız bizi sevindirir. Bu da düşünülmüş siyasətin nəticəsidir. Beynəlxalq nüfuzumuz kifayət qədər yüksəkdir. Bu gün Azərbaycan dünya miqyasında böyük dəstəyə və hörmətə malik olan ölkədir".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**